**03.06.2010**

“Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununa (12-ci maddə, 3-cü abzas) əsasən, Azərbaycan Respublikasının bağladığı dövlətlərarası müqavilələrə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentinin təklifi üzrə Azərbaycan Respublikasının Milli Məclisi əcnəbilərin Azərbaycan Respublikasına gəlməsinin şəxsi pasporta əsaslanan vizasız (sadələşdirilmiş) qaydasını müəyyənləşdirə bilər.

Bu günə qədər Azərbaycan Respublikasının imzaladığı dövlətlərarası müqavilələrə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən siyahısı aşağıda qeyd olunan ölkələrlə **diplomatik və xidməti (rəsmi, xüsusi) pasporta malik vətəndaşlar və onların ailə üzvləri** (ər və arvadlarının, yetkinlik yaşına çatmamış oğlanlarının, ərdə olmayan qızlarının) üçün, həmçinin Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri ilə (Türkmənistan istisna olmaqla) **ümumvətəndaş pasportuna malik vətəndaşlar** üçün, qarşılıhq prinsipi əsasında şəxsi pasporta əsaslanan vizasız (sadələşdirilmiş) gediş-gəliş qaydası müəyyən olunmuşdur.

Aşağıda göstərilən növ pasportlara malik Azərbaycan Respublikası və müvafiq ölkələrin vətəndaşları qeyd olunan müddətlərdə iki ölkə arasında vizasız gedib-gələ bilərlər.

Bundan əlavə, Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əldə olunmuş razılığa əsasən, Türkiyə Respublikasına səfər edən Azərbaycan Respublikası vətəndaşları üçün 30 günədək vizasız rejim müəyyən olunmuşdur. Azərbaycan Respublikasına səfər edən Türkiyə Respublikası vətəndaşlarına Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarında rüsumsuz, Azərbaycan Respublikasında Bakının Heydər Əliyev Beynəlxalq Hava Limanı, Gəncənin Beynəlxalq Hava Limanında və Naxçıvanın Beynəlxalq Hava Limanında 10 ABŞ dolları məbləğində 60 günədək viza rəsmiləşdirilir.

| Ölkə | Pasportların növü | Ölkədə qalma müddəti |
|---|---|---|
| Bolqarıstan | Diplomatik və xidməti | 90 gün |
| Braziliya | Diplomatik, rəsmi və xidməti | 90 gün |
| Çin | Diplomatik və xidməti | 30 gün |
| Fransa | Diplomatik | 90 gün |
| İndoneziya | Diplomatik və xidməti | 30 gün |
| İordaniya | Diplomatik və xidməti | 90 gün |
| İran | Diplomatik və xidməti | 1 ay |
| | Ümumvətəndaş (yalnız Azərbaycan Respublikası vətəndaşları üçün) | 15 gün |
| Koreya | Diplomatik, rəsmi və xidməti | 30 gün |
| Kuba | Diplomatik, rəsmi və xidməti | 90 gün |
| Macarıstan | Diplomatik və xidməti | 90 gün |
| **Makedoniya** | **Diplomatik və xidməti** | **90 gün** |
| MDB ölkələri (Türkmənistan istisna olmaqla) | Bütün növ pasportlar | 90 gün |
| Meksika | Diplomatik | 90 gün |
| Mərakeş | Diplomatik, rəsmi, xidməti və xüsusi | 90 gün |
| **Monqolustan** | **Diplomatik və xidməti** | **90 gün** |
| Liviya | Diplomatik, xidməti və xüsusi | 90 gün |
| Pakistan | Diplomatik və xidməti | 1 ay |
| **Rumıniya** | **Diplomatik və xidməti** | **90 gün** |
| **Serbiya** | **Diplomatik, rəsmi və xidməti** | **90 gün** |
| Slovakiya | Diplomatik və xidməti | 90 gün |
| Sloveniya | Diplomatik | 90 gün |
| Suriya | Diplomatik, xidməti və xüsusi | 30 gün |
| Türkiyə | Diplomatik, xidməti və xüsusi | 90 gün |
| | Ümumvətəndaş (yalnız Azərbaycan Respublikası vətəndaşları üçün) | 1 ay |
| Türkmənistan | Diplomatik və xidməti | 30 gün |